

Naxçıvan şəhərində qədim məhəllə adları

Naxçıvan şəhəri orta əsrlərdə tarixi ipək yolunun üstündə olmuş, burada əhali artıb-çoxalaraq məhəllələr yaranmış və sənətkarlıq sahələri inkişaf etdirilmişdir.

Tarix boyu Naxçıvan şəhəri xarici işğalçıların dağıdıcı zərbələrinə məruz qaldığından, əhali dözümlü, mətanətli və səbrli olmuşdur.

Müasir Naxçıvan şəhəri böyüyüb gözəlləşmiş, geniş xiyabanlar salınmış, çoxmərtəbəli yaşayış binaları tikilmiş, küçələrə ad verilmiş və əskidən qalma məhəllə adları da unudulmamışdır.

Naxçıvan MR Mədəniyyət və Turizm Nazirliyinin qeydiyyatında olan qədim məhəllə adları aşağıdakı kimi qalmışdır.

1) Ağabəylər məhəlləsi. Qədim məhəllə olmuş, indiki Atatürk küçəsində "Gənclik kafesi"ndən başlamış Daxili İşlər Nazirliyi yerləşən ərazıyədək M.Sidqinin (1854-1903) məktəbi fəaliyyət göstərmiş, yanında "Padşahlıq bağı" - (Böyük bağ) olmuş və hazırda unudulmuşdur.

1918-20-ci illərdə orada Naxçıvan Araz (Türk) Respublikası hökumətinin idarə binası olmuşdur. Həmin binada 1982-ci ildən fəaliyyət göstərən C.Naxçıvanskinin ev-muzeyi ilə şəhər 2№-li uşaq musiqi məktəbi də yerləşmişdir. Ərazidə M.Sidqi məktəbinin yerində "Ana dili" abidəsi qoyulmuşdur. Məhəllə 1924-cü ildən əvvəlki şöhrətini itirmişdir.

2) Anbar məhəlləsi. İndiki Naxçıvan Müəllimlər İnstitutu binası ətrafında olmuşdur.

Bu kiçik məhəllə əsasən Naxçıvana gələn tacir-müsafirlərin mallarının saxlanılması üçün böyük yeraltı və yerüstü anbarların olması ilə əlaqədardır.

Məhəllə XVII əsrədək şöhrətli olmuş, sonradan fəaliyyəti azaldığından adı da unudulmuşdur. Məhəllədəki anbar binaları 1924-cü ilədək qalmışdır, sonradan uçularaq yerində şəxsi həyətlər salınmışdır. Azərbaycanın Xalq aktrisası Z.Həmzəyeva həmin məhəllədə anadan olmuş, pedaqoji elmlər doktoru İbrahim Mollayev, XII əsrin memarı Əcəmi Əbubəkr oğlu və başqaları burada yaşamışlar. Ərazidə Naxçıvan Müəllimlər İnstitutu, Aviakassalar və İqtisadi İnkişaf Nazirliyinin inzibati binaları vardır.

3)Atabəylər məhəlləsi. Qədim məhəllə olaraq kiçik ərazidə böyük Əcəminin tikdiyi əzəmətli Möminə xatun (Atababa türbəsinin) ətrafında olmuşdur. Ərazidə yalnız Naxçıvan hakimlərinin iqamətgahları ilə bərabər divanxana, iki tağlı darvaza tikilisi, qırxpilləli su kəhrizi (Ağaməli) və başqa tikililər də olmuşdur.

Məhəllə ərazisində hazırda Xalça muzeyi, Açıq səma altında muzey, bədii suvenirlər. Mö-

minə xatun məqbərəsi (1186-cı il) və digər mədəniyyət müəssisələri fəaliyyət göstərir.

1964-cü ilədək məhəllədəki tarixi binalarla bərabər orada şəhər məhkəməsi, Respublika hərbi Komissarlığı və avtovağzal binaları da olmuşdur. Hazırda məhəllənin adı unudulmaq üzrədir.

Ərazidəki Mir Yaqub piri 1986-cı ildə yenidən qurulmuşdur.

4) "Bəktaş arxı" (Bəydaş) məhəlləsi. XVII-XVIII əsrlərədək Naxçıvanda Osmanlı Türk imperiyasının hakimiyyəti dövrlərində, şəhərin şimal-şərq hissəsində Əlixan məhəlləsindən axan "bazar çayından ayrılmış sol qol "Ziyil" arxının başlanğıc ərazilərinə Bəydaş məhəlləsi deyilərdi.

Məhəlləyə (əraziyə) həmin adın verilməsi Türkiyənin İqdır vilayətindən olan "Bəktaş" Osmanlı dərviş ordeninə layiq görülmüş və Naxçıvanda gəlib yaşamış mülkədar Rauf Əfəndi Bəktaşinin adı ilə bağlıdır. Hazırda Naxçıvanda Bəktaşi soyadı ilə yaşayan vətəndaşlar (onlar çox az qalmışlar) həmin dərviş ordenli Rauf Əfəndinin soy kökündən olanlardır (Onlar Vilayət Firqə Komitəsinin Katibi, Mirzalı bəy Bəktaş, Xalq müəllimləri Raufla Məmməd Bəktaşilər və başqaları idi).

Bəktaş arxının suyu şəhərdəki Əlixan, Çimən, Pirqəmiş, Şahab, Qurdlar və digər məhəllələrdəki əkin torpaqlarının suvarılmasında böyük əhəmiyyətə malik olmuşdur.

1936-cı ildə Naxçıvanda Kirov adına kolxoz yarandıqdan sonra ərazidə su dəyirmanı olduğundan Bəktaş məhəlləsi arxı ilə birlikdə təsərrüfatın ixtiyarına verilmişdir. Artıq həmin məhəllə adı unudulmuşdur.

Məhəllədə otuzuncu illərdə Naxçıvan Tədqiq və Tətöbbö Cəmiyyətinin elmi katibi M.Mirheydərzadə (1877-1956) yaşamışdır ki, onun həyətində əkilmiş yüz əlli ildən artıq qocaman tut ağacı qalmışdır. Məhəllədəki köhnə qəbirstanlıq yerində Fatmabəyim piri də vardır.

5) Çıdıllı məhəlləsi. Naxçıvan şəhərinin şimal-qərb tərəfində indiki Dövlət Dram Teatrının binası yerində geniş bir meydança var idi. Həmin meydanda XX əsrin 40-50-ci illərinədək at yarışları keçirilər, kəndirbazlarla pəhləvanlar öz məharətlərini göstərərdilər.

Həmin meydanın ətrafında yaşayış yerləri olmuşdur ki, bura Çıdıllı məhəlləsi adlandırılmışdır.

Hazırda məhəllənin adı unudulmuşdur.

6) Cığatay məhəlləsi. Həmin məhəllənin yaranması tarixi XII əsrin əvvəllərinə təsadüf olunur.

1235-ci ildə monqollar Gormoğxanın başçılığı ilə Naxçıvanda qanlı döyüşlər apararaq əraziləri öz təsirləri altına salmışlar. Naxçıvanda qalıb yaşayan gözüqıpıq asiyalılar, məskunlaşdıqları məhəlləyə "cığataylar" yerləşən binadan indiki Sabir küçəsinədək Çimən məhəlləsi ilə Pirqəmiş məhəlləsi arasındakı ərazilərdə (Əzizbəyov küçəsi) olmuşdur.

Qədim məhəllədə hələ də həmin kökdən olan gözüqıpıq adamlara rast gəlinir.

Məhəllədə Azərbaycanın ilk realist rəssamı Bəhruz Şirəlibəy oğlu Kəngərli (1892-1922) yaşamışdır.

Azərbaycanın ümummilli lideri H.Əliyevin (1923-2003), Afiyəddin Cəlilovun (1946-1994) və Həsən Xəlilovun (1921-1999) gənclik illəri həmin məhəllədə keçmişdir.

Məhəllənin adı unudularaq yaddaşlardan silinmişdir.

7) Çaparxanlı məhəlləsi. Keçmişdə çaparların atları saxlanılıb dəyişilən ərazi olmuşdur. Məhəllənin əski adı "çaparxana" olmaqla burada poçt-teleqraf bınası, at tövləsi, yaşayış evləri və sairə yerləşmişdir.

Məhəllə Bazar çayının üstündə, indiki 12 №-li orta məktəbin yerləşdiyi ərazidə olmuşdur. 60-cı illərin ortalarınadək "Oktyabr" küçəsi adlanan məhəllə tamamilə sökülmüşdür. Məhəllədə ingilis poçt-teleqrafxana binası olmuşdur ki, London-Kəraçi (Bomboy) teleqraf xəttinin Naxçıvan diyar (dayaq) stansiyası var idi. Çaparxanlı məhəlləsində dövrünün görkəmli din xadimləri yaşamışlar.

Hazırda məhəllənin adı unudulmuşdur.

İyirminci ilədək məhəllədə Çapar Məcid,

Əliqulu Qəmküsar, daha sonrakı illərdə isə Xalq artisti Əkbər Qardaşbəyov, rejissor Vəli Babayev və başqaları yaşamışlar.

İndi isə məhəllədə M.S.Ordubadi adına Naxçıvan Respublika mərkəzi kitabxanası ilə rəssamlar birliyi və təqaüdçülər klubu da fəaliyyət göstərir.

8) Çimən məhəlləsi. Naxçıvan şəhərinin şimal-şərq hissəsində Bəktaş arxı, Cığatay və Qoçüstü məhəllələri arasındakı indiki M.Ordubadi və Y.Məmmədəliyev küçələri ərazisindədir. Məhəllənin ərazisinin çox hissəsində yeraltı suların üzə çıxmasından təbii çimənlik əmələ gəlmiş və əhalinin mal-heyvan otlaq yeri olmuşdur.

Altmış-yetmişinci illərdə ərazidə yeraltı drenaj kanallar çəkilməsi nəticəsində, qrunt suları azalmış və əhali kütləvi surətdə boş qalmış yerlərdə məskunlaşdırılmışdır.

1918-20-ci illərdə Çimən məhəlləsində Kazım Qarabəkir Paşanın türk azadlıq əsgərlərinin atıcı alayı yerləşdirilmiş və orada sursat anbarları tikilmişdir. Anbarlardan biri yetmişinci ilədək qalmış, Vilayət Həmkarlar Şurasına inzibati bina tikilərkən vətəndaş R.Rəhimovun sökülən mülk yerindən tapılmışdır.

Məhəllə ərazisində Vilayət Həmkarlar Konfedrasiyası, orta məktəb, uşaq baxçası və başqa ictimai binalar tikilmişdir.

Ərazidə xeyriyyəçi Şahbazağa, filoloji elmlər namizədi İzzət Maqsudov, kimya elmləri doktoru Raiq Hacılı və başqa şəxslər yaşamışlar.

Məhəllənin əhalisinin yarıdan çoxu ətraf kəndlərdən gələnlər olduğundan adı unudulmaq üzrədir.

9) Dabbaqxana məhəlləsi. Naxçıvanda qədim məhəllələrdən olaraq ərazidə sənətkarlıq (dəri aşılamaq, çarıqçılıq, göndən hazırlanan təsərrüfat alətləri) inkişaf etdirilmişdir. Məhəllədə Dabbaqxana çeşməsi dövrümüzədək qalaraq suyundan əkin suvarılmasında, buz hazırlanmasında və sairə istifadə olunardı.

Məhəllə indiki şəhidlər məzarlığının cənub hissəsində olaraq, orada Muxtar Respublika Meteoroloji Stansiyası fəaliyyət göstərmişdir. Ərazidə XI əsrdən qalma Buxana tarixi mədəniyyət abidəsi vardır. Məhəllədə əhali seyrək yaşasa da orta məktəb və beşmərtəbəli ictimai binalar tikilmişdir.

10) Dəmirçilər məhəlləsi. Qədim məhəllə Naxçıvan şəhərinin Firdovsi küçəsinin başlanğıcından "Pirqəmiş məhəlləsi"nədək uzanıb gedir.

Keçən əsrin əvvəllərində məhəllədə onlarca dəmirçixana kürələri fəaliyyət göstərmişdir. Təəssüf ki, dəmirçilik peşəsi elektrik qaynağı ilə əvəz olunduğundan məhəllədəki kürələr də ləğv olaraq aradan götürülmüşdür.

Dəmirçilər məhəlləsinin əhalisi qədim Naxçıvan (Nəşəvi) sakinləridir. Məhəllənin küçələri qədimdən qalma olduğundan ensiz və labirintvaridir.

Dəmirçilər məhəlləsinin sakinləri zəhmətkeş və uzunömürlüdür. Məhəllədə altmışıncı ilədək Naxçıvan Rayon Mərkəzləşdirilmiş Xəstəxanası fəaliyyət göstərmişdir. Haliyyədə məhəllədə Ü.Hacıbəyov adına musiqi texnikumu, Uşaq İncəsənət Məktəbi və görkəmli "molla nəsrəddinçi" C.Məmmədquluzadənin ev-muzeyi vardır. Məhəllədə tanınmış şəxslərdən Əməkdar mədəniyyət işçisi Sübhi Kəngərli, hüquq-mühafizə veteranı Nağı Qəhrəmanov və başqaları yaşamışlar.

11) "Dizə" məhəlləsi. Dizə məhəlləsi Naxçıvan şəhərində qədim məhəllələrdən biri olmuşdur. Məhəllənin ərazisi Naxçıvanın Elm Mərkəzinin (keçmiş şəhər 1№-li məktəb) binasından indiki şəhər Avtovağzal binası ərazilərinədək olmuşdur.

"Dizə" toponimi yığıntı, gəlmə, yığışma sözündən olmaqla buraya doğrudan da, əvvəllər ətraf kəndlərin əhalisi gələrək məskunlaşmışlar.

XIX-XX əsrlərdə Şahbuzdan, Babək rayonundan, cənubi Azərbaycanın Xoy, Salmas və Urmiya ərazilərindən gəlmiş əhali həmin yerdə məskunlaşdıqlarından Dizə məhəlləsi adlandırılmışdır. Məhəllənin adını yalnız yaşlı nəsil nümayəndələri bilirlər. Məhəllə ərazisində əvvəlki əsrlərdə məscid binası və "Pir Ömər Nəşəvi" sərdabəsi də olmuşdur.

12) Xınçov məhəlləsi. Naxçıvan şəhərində

60 illik məhəllə adlarından biridir. İndiki 1№-li məktəbin ətrafındakı çökək relyefli ərazidən ibarətdir.

Sovet hakimiyyəti illərində məhəllə ərazisində "Oraq və çəkic" adlı kolxoz yaradılmışdır. Kolxoz binası yanında yaraşıqlı Mədəniyyət evi binasını da tikmişlər. Həmin bina bərpa olunduqdan sonra Naxçıvan MR Mərkəzi Seçki Komissiyasının inzibati binası kimi fəaliyyət göstərir. Məhəllənin əhalisi 1941-49-cu illərdə keçmiş Naxçıvan rayonundakı Xıncab kəndindən və Şahbuz nahiyyəsinin Remeşin kəndlərindən köçüb gələn vətəndaşlardır.

Məhəllədə əkin torpaqlarını suvarmaq üçün kəhrizlər vardır ki, onları keçmişdə xeyriyyəçi Kərbəlayi Musa adlı mömin şəxs çəkdirmişdir. Məhəllə "yeni" olduğundan adı bu gün də xatırlanır. Məhəllədə professor Səfaralı Babayev, şair İslam Səfərli və başqa tanınmış şəxslər yaşamışdır.

13) Xoylu (Xoşulu) məhəlləsi. Naxçıvan şəhərində qədim məhəllə adlarındandır. "Qızlar bulağı"ndan başlayaraq "Xandiki"nin aşağısı qədim məhəllə əraziləridir.

XVIII əsrin axırlarında cənubi Azərbaycanın Xoy vilayətindən gəlmiş əhali burada məskunlaşmışdır. Əhali Bazar çayı üstündəki su dəyirmanlarını tikmiş, göy-göyərti əkib becərməklə və alış-veriş işləri ilə məşğul olardılar. Yenə də onlar göyərti alveri ilə məşğuldurlar. Məhəllədə su dəyirmanları olmadığından köhnə adı unudulmuşdur.

14) Kəngərli (Atabəylər) məhəlləsi. Naxçıvan şəhərində qədim məhəllələrdən biri olaraq yaranması, orta əsrlərdə Naxçıvan ərazilərində Mərkəzi Asiyadan gəlmə "Kanqlı" (arabaçı) Kəngərli tayfalarının məskunlaşmasındandır.

Keçmişdə şəhərdəki Qala məhəlləsinin şimal əraziləri Kəngərli məhəlləsi adlanırdı. Bu məhəllə adı da digər məhəllə adları kimi unudulmuş, yalnız yaşlı nəslin nümayəndələri xatırlayırlar. Əsas səbəbi həmin məhəllədə yaşayan Kəngərli soykökündən olan vətəndaşların əksəriyyəti 1930-40-cı illərdə kütləvi surətdə "sinfi düşmən" adı ilə məhv olmalarındandır.

Sonrakı illərdə məhəllənin əvvəlki adı unudularaq "Atabəylər" adlandırılmışdır.

15) Gomayıl məhəlləsi. Naxçıvan şəhərindəki Sarvanlar məhəlləsinin şərq ərazisindədir.

Həmin məhəllə sakinləri İrəvan elindən (Dəvəli-Üçkilsə) köçüb gələn soydaşlarımız olmuşlar. Məhəllə sağ tərəfdən "Qızlar bulağı"na söykənmiş, Bazar çayı ilə gur sulu çeşmələri əkin yerlərinin suvarılmasına şərait yaradıldı. Bu məhəllədə əvvəllər (əllinci illərdə) İsmayılov soyadından olan vətəndaşlar çoxluq təşkil edirdi. Gomayıl məhəlləsi adı da unudulmuşdur.

16) Qala məhəlləsi. Naxçıvan şəhərindəki qədim məhəllə adıdır. Məmina xatun məqbərəsi ilə Respublika Mədəniyyət Sarayının arasında olmuşdur. Məhəllədə əsasən Rusiyadan köçürülmüş molakanlar məskunlaşmışlar. Hazırda bu məhəllə adı da, bir çox məhəllələr kimi unudulmuşdur. Ərazidə Naxçıvan MR Mədəniyyət və Turizm Nazirliyi Film Fondunun Arxivi də yerləşmişdir.

17) Qara ağac məhəlləsi. Naxçıvan şəhərində qədim məhəllə ərazisidir. Həmin ərazi indiki şəhər 8№-li orta məktəblə keçmiş xəstəxana binası arasında olmuşdur.

İyirminci ildə erməni Andranikin qoşun dəstələri Naxçıvana gələrək şəhər vətəndaşlarının təslim olmasını bildirdikdə, şəhərdəki Əlixanla Qaraağac məhəlləsinin cavanları ərazidəki qaraağac bağına yığışaraq məsləhətləşmələrlə şəhərin müdafiəsini saxlamışlar.

Məhəllədəki qaraağac bağı Kərbəlayi Musanın şəxsi mülkü olmuş, yerli dülgərlər həmin ağaclardan kənd təsərrüfatında və məişətdə işlədilən alətlər yonub hazırlayırdılar. Qaraağac məhəlləsində mömin xeyriyyəçi Kərbəlayi Musanın əzəmətli ikimərtəbəli imarəti olmuşdur. Həmin ev əllinci illərin axırlarında sökülmüş yerində camaşırxana tikmişlər. Məhəllənin adı hazırda unudulmuşdur...

(davamı növbəti sayımızda)

Feyruz BAĞIROV,
Elmi-Metodik Mərkəzin şöbə müdiri
Naxçıvan